## "Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə [1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

"Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində "Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

"Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin dördüncü və altıncı hissələrində, 9-cu maddəsinin birinci və üçüncü hissələrində və 15-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, *Dövlət Təhlükəsizliyi Xidməti*, Dövlət Sərhəd Xidməti və Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarının Baş Mühafizə İdarəsi həyata keçirirlər; [2]

həmin Qanunun 7-ci maddəsinin adında, birinci və ikinci hissələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, *Dövlət Təhlükəsizliyi Xidməti*, ", Dövlət Sərhəd Xidməti və Ali Dövlət Hakimiyyəti və İdarəetmə orqanlarının Baş Mühafizə İdarəsi həyata keçirirlər; [3]

həmin Qanunun 8-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir.

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 11 iyun 2001-ci il
500

-

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 9 yanvar 2004-cü il tarixli 12 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 1, maddə 19**)
2. 19 aprel 2005-ci il tarixli 224 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 4, maddə 299**)
3. 28 sentyabr 2007-ci il tarixli 636 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 9, maddə 874**)
4. 3 mart 2017-ci il tarixli **1275** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 5 mart 2017-ci il, 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 353**)

### FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 28 sentyabr 2007-ci il tarixli 636 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 9, maddə 874**) ilə adında, preambulasında, 1-ci bəndinin ikinci, dördüncü, beşinci abzaslarında və 2-ci bəndinin ikinci abzasında "Qırmızı Xaç və Qırmızı Aypara" sözləri "Qızıl Xaç və Qızıl Aypara" sözləri ilə əvəz edilmişdir.

[2] 3 mart 2017-ci il tarixli **1275** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 5 mart 2017-ci il, 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 353**) ilə 2-ci hissəsinin ikinci və üçüncü abzaslarında "**Milli Təhlükəsizlik Nazirliyi**" sözləri "**Dövlət Təhlükəsizliyi Xidməti**" sözləri ilə əvəz edilmişdir.

[3] 9 yanvar 2004-cü il tarixli 12 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 1, maddə 19**) ilə 2-ci bəndin ikinci və üçüncü abzaslarında "**Milli Təhlükəsizlik Nazirliyi**" sözlərindən sonra "**, Dövlət Sərhəd Xidməti**" sözləri əlavə edilmişdir.

19 aprel 2005-ci il tarixli 224 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 4, maddə 299**) ilə 2-ci bəndin ikinci və üçüncü abzaslarından "**Hərbi Əks-kəşfiyyat Xidməti"** sözləri çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~"Qırmızı Xaç və Qırmızı Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin dördüncü və altıncı hissələrində, 9-cu maddəsinin birinci və üçüncü hissələrində və 15-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Dövlət Sərhəd Xidməti, Hərbi Əks-Kəşfiyyat Xidməti və Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarının Baş Mühafizə İdarəsi həyata keçirirlər;~~

~~həmin Qanunun 7-ci maddəsinin adında, birinci və ikinci hissələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, ", Dövlət Sərhəd Xidməti, Hərbi Əks-Kəşfiyyat Xidməti və Ali Dövlət Hakimiyyəti və İdarəetmə orqanlarının Baş Mühafizə İdarəsi həyata keçirirlər; [3]~~

-